## DÜNYA HAMININ

Bakıda məktəblilərin mahnı festivalı keçirilirdi. Burada Sumqayıtdan gəlmiş Fidan adlı balaca, arıq, qarayanız bir qız da çıxış etməli idi.

Mahnı festivalında dahi rəhbər də iştirak edirdi və bu, balaca müğənnini daha da həvəsləndirmişdi.

Balaca Fidan səhnəyə çıxdı. Onun oxuyacağı mahnı dahi rəhbərin ən çox xoşladığı mahnı idi. Böyük şair Məmməd Arazın şeirinə bəstələnmiş mahnını Fidan elə gözəl oxudu ki, hamı ayağa durub əl çaldı. Fidan mahnının nəqarətini özü bildiyi kimi oxudu. Mahnının sözləri belə idi:

Dünya sənin,
Dünya mənim,
Dünya heç kimin...

Fidan isə başqa cür oxudu:

Dünya sənin,
Dünya mənim,
Dünya hamının.

Dahi rəhbər durub səhnəyə çıxdı. Balaca Fidanı qucağına alıb üzündən öpdü.

Bu an kimsə rəhbərin adından balaca müğənniyə bir dəstə gül verdi. Dahi rəhbər soruşdu:

— Adın nədir, balaca?

Qız utana-utana dilləndi:

— Adım Fidandı.

— Bəs soyadın?

— Namazova Fidan.

— Haradan gəlmisən, balası?

— Sumqayıtdan gəlmişəm, — dedi qız.

— Atan nəçidir, Fidan?

— Atam Qarabağ veteranıdır.

— Nə yaxşı! Fidan, bəs mahnının sözlərini niyə dəyişmisən? Amma yaxşı dəyişmisən.

— Belə yaxşıdır, — dedi qız. Axı dünya heç kimin deyil. İstəyirəm ki, dünya da hamının olsun: Günəş kimi, bahar kimi... Və Fidan  balaca əlləri ilə rəhbərin boynunu — qucaqladı: — Və sizin kimi, — dedi.

***Məmməd Namaz***

***Günəş ömürlü insan. – B.: Təhsil, 2012. – S. 11-12.***